# MÜZƏFFƏR İNSAN (M.AĞAMALIZADƏ - 80)

*Yusif AXUNDZADƏ*

Azərbaycan Respublikasının Xalq artisti, Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Nəfəs və zərb alətləri kafedrasının professoru, Prezident təqaüdçüsü Müzəffər Ağamalızadə Azərbaycan musiqi mədəniyyətinin təmsilçiləri arasında xüsusi yeri olan bir sənətkardır. Onun barəsində düşünərkən bütün yaradıcı həyatım gözümün önündə canlanır. Biz uşaqlıq dostuyuq. Sözün əsl mənasında dostluq etmişik və bu gün də edirik. Müsahibələrin birində Müzəffər müəllim münasibətlərimizi qardaş kimi dostluq adlandırıb. Tamamilə doğrudur. Biz bir-birimizə qardaş qədər doğma olmuşuq. Hər zaman tanışlığımızdan söz düşəndə rəhmətlik anamla bağlı olan xatirəm yadıma düşür. Anam əlimdən tutub Bülbül adına musiqi məktəbinə gətirdiyində otaqların birində Müzəffərin ifasında səslənən musiqi anamı valeh etmişdi. Elə ordaca məni fleyta sinfinə yazdıracağına qərar vermişdi. O zamandan bizim dostluğumuz başlayıb. Məktəbi bitirdik, ali təhsil aldıq, müxtəlif zamanlarda eyni orkestrdə çalışdıq. Uzun zamandır ki, eyni təhsil ocağında pedaqoji fəaliyyətlə məşğuluq. Gənclik illərində konsertlərdə, müsabiqələrdə birlikdə iştirak etmişik. Uğurlarımız, nailiyyətlərimiz çox olub.

Nə zaman Müzəffər müəllimi xatırlasam yalnız xoş təəssüratlar canlanır xatirimdə. Çünki çox məsuliyyətli, istiqanlı və səmimi insandır. O, istedadlı yaradıcı musiqiçi olmaqla yanaşı həm də yüksək peşəkarlığa malik pedaqoqdur. Heç bir işə səhlənkar yanaşmaz, həmişə öhdəsinə düşən işi nümunəvi icra edər. Akademik səhnənin standartlarını saxlamaq, ora diletantlığın, özfəaliyyətin ayaq açmasına izn verməmək. Bu çox vacib və çətin işdir. Cəmiyyətin musiqi zövqünü korlayan nə qədər ünsürlər var və həmişə də olacaqdır. Biz isə onlara yalnız professional səviyyəni qorumaqla cavab verə bilərik. Bu baxımdan Müzəffər müəllimin ustad sənətkar kimi həm konsert, həm də pedaqoji fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.

M.Ağamalızadə Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərini yüksək peşəkarlıqla ifa edir.







Biz Müzəffər müəllimin konsert fəaliyyətinə nəzər salsaq görərik ki,o, respublikamızda və xaricdə neçə mötəbər konsertlərdə müvəffəqiyyətlə çıxış edib. Almaniya, İsveçrə, Misir, Türkiyə, Ərəb Əmirlikləri və Fransada verdiyi konsertlər Azərbaycan Mədəniyyəti və İncəsənətinin təbliğinə yönəlmiş əvəzsiz ərmağandır.

Müzəffər müəllim 1972-ci ildə yaratdığı nəfəs alətləri Kvinteti Azərbaycan ifaçılıq mədəniyyəti sahəsində bir yenilik idi. 20 il ərzində fəaliyyət göstərən ansambl Sovetlər birliyinin bir çox şəhərində konsertlər verdi. Hətta Azərbaycan Radio və Televiziya komitəsində hal-hazırda onların lent yazıları da saxlanılmaqdadır.

O, elə nadir musiqiçilərdəndir ki, dahi maestro Niyazi öz istəyi ilə onu Azərbaycan Dövlət Simfonik Orkestrinə solist kimi dəvət edib. Qeyd edim ki, Müzəffər müəllim 21 yaşından bu orkestrdə çalışırdı. Lakin xarici ölkəyə ezam olunduğu üçün bir müddət fasilə vermişdir.

25 yaşında pedaqoji fəaliyyətə başlayan Müzəffər müəllim böyük təcrübəyə malikdir. İlk olaraq A. Zeynallı adına musiqi texnikumunda fəaliyyətə başlayan ifaçı daha sonra Azərbaycan, sonra isə Əlcəzair Dövlət Konservatoriyasında, ardınca isə Türkiyədə, xüsusilə qeyd edim ki, Bilkənt Universitetində fəaliyyət göstərmişdir. Bilkənt Universiteti isə dünyada mötəbər, nüfuzlu təhsil müəssisələrindəndir. Göründüyü kimi Müzəffər müəllimin pedaqoji fəaliyyəti coğrafi miqyasda üç qitəni əhatə edir. Onun hazırladığı tələbələr dünyanın müxtəlif yerlərində konsert, pedaqoji fəaliyyətlə məşğul olur, orkestr musiqiçisi kimi çıxış edirlər.

Onun tələbələri imtahanda da, konsertlərdə də ifaçılıq texnikası və mədəniyyəti baxımından daim fərqlənirlər. Eyni dərslik və metodik vəsaitlərdən digər müəllimlər də istifadə edirlər, lakin onun əldə etdiyi



nəticələri əldə edə bilmirlər. İnsanda belə təəssürat yaranır ki, sanki Müzəffər müəllim şagird və tələbələrini ovsunlayaraq virtuoz musiqiçiyə çevirir.

Hər övlada deyərlər ki, adı ilə böyüsün, adına layiq olsun. Lakin bu hər kəsə nəsib olmur. Müzəffər isə həm dünyaya gəldi, həm də adına layiq olaraq müzəffər oldu, zəfər qazanan oldu. Uğurların bol olsun, çox yaşa dostum. 80 yaşın mübarək!